## Vaqif YUSİFLİ - 75

# Vaqif Yusifli: Ədəbi portret cizgiləri

Vaqif Yusifli müasir ədəbi prosesdə fəal iştirak edən tanınmış tənqidçidir. O, ədəbiyyatın müxtəlif problemlərinə dair 3000-ə qədər məqalənin müəllifidir. Bu məqalələr Azərbaycan nəsri, poeziyası, dramaturgiyası və ədəbi tənqidinin inkişaf mənzərəsini əks etdirir. Vaqif Yusifli ədəbi tənqidin məqalə, esse, resenziya, ədəbi məktub, icmal kimi janrlarında yazıb-yaradır. Məqalələri Azərbaycan, Türkiyə, Almaniya və İranda çap olunub.

Vaqif Yusifli Respublikanın Əməkdar mədəniyyət işçisi (2003) fəxri adına layiq görülüb. Beynəlxalq Rəsul Rza və Məmməd Araz ədəbi mükafatları laureatıdır.

Azərbaycan Respublikası Prezidentinin 05.10.2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında ədəbiyyatşünaslıq sahəsində səmərəli fəaliyyətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilib.

Vaqif Yusifli tanteminde qafiyə, ritm və ahəng var. Bu ahəngdarlıq həm də onun səsi, duruşu, yerişi, baxışı, fikir və düşüncələrindədir. Yəni Vaqif Yusifli hətta ayaqlarını belə yolların sinəsinə yumşaq qoyur, addımlarıyla yolları sanki heca kimi ayırır, ritm-ahəng yaradır. Vaqif Yusiflini həmişə bir harmoniya müşayiət edib. Bu mənada bu yazıda da Vaqif Yusiflinin adi təbiəti, ali mənəvi aləmi, sadə yazı tərzi və üslubu ilə ziyalı şəxsiyyəti harmoniya təşkil edib. Vaqif Yusifli dünyaya mətnlərdən baxıb. Bu babətdən elə mətnimizin ifadə forması belə sadə cümlə sintaqmları ilə həmrəng, həmahəng olub.

Vaqif Yusifli çalışqan, mütaliəli və çox çap olunan müəllifdir (İsa Həbibbəyli). Vaqif Yusifli ədəbiyyat dənizinin dor ağacından baxan adamdır (Vilayət Quliyev).

Vaqif Yusifli peşəsinə içdən bağlıdır - daim iş başındadır (Vilayət Quliyev). İddiası-namuslu ədəbiyyat adamı olmasıdır (Vilayət Quliyev).Klassik poeziya əxlaqı və sevgisi onun tənqidçi portretini tamamlayır (Rüstəm Kamal). Vaqif Yusifli mustik təbiətli, ovqatlı, enerjili tənqidçidir. O, klassiklərə və müasirlərə dua oxuyur bütün yazılarında (Rüstım Kamal). Tənqidçi və filosofRüstəm Kamal bunu da yazıb: Vaqif Yusiflinin Füzuli, Kişvəri və Nəbatiyanə könül yanğısı, -cavanlara, şairlərin şıltaqlığına sufiyanə nəzakəti var. Bu mənada Elnarə Akimova Vaqif Yusiflini "qayakimi sərt və təbii" adlandırıb. Vaqif Yusiflini işıqaxtaran tənqidçi kimi qiymətləndirib. Qənaəti də bu olub ki, "Vaqif üçün işıq elə tənqidin özüdür".

VaqifYusifli 1960-1970-ciillər nəsrinin ilk tədqiqatçılarındandır. «Nəsr: konfliktlər, xarakterlər» (Bakı, «Yazıçı»-1986) kitabında o, Anar, Elçin, İsi Məlikzadə. Yusif Səmədoğlu, Sabir Azəri, Mövlud Süleymanlı və başqa nasirlərin yaradıcılığını təhlil edib, onların nısr əsərlərindəki yeniliklərdən söz açıb. Kitabın rəyçisi Akif Hüseynov, redaktoru Elçin Əfəndiyevdir. Kitab müəllifin eyni adlı namizədlik dissertasiyası əsasında hazırlanıb. Elçin kitaba geniş ön söz yazıb. Monoqrafiya giriş və iki fəsildən ibarətdir. Müəllif 1960-1975-ci illər Azə rbaycan nəsrindəki bədii prosesləri izləyib.

VaqifYusifli ədəbi tənqidə 1970-ci illərin ikinci yarısında gəlib. Onunla bir sıradaAydın Məmmədov, Kamil Vəliyev, Nizami Cəfərov, Nadir Cabbarov, Vilayət Quliyev, Kamal Abdulla, Şirindil Alışanlı, Rəhim Əliyev, Nizaməddin Şəmsizadə, İlham Rəhimli, Məryəm Əlizadə ədəbi təcrübənin dərslərindən öyrəniblər. Onlar ədəbi-bədii ideyalar mühitində tərbiyələnib, sosial-tarixi gerçəkliyin imtahanlarından, sınaqlarından çıxıblar.

Qardaşı Cavanşir Yusifli yazıb ki, Vaqif bu günə kimi müasir ədəbi prosesin ən ardıcıl tədqiqatçısıdır. Hesab edir ki, o, tənqidə ədəbiyyatşünaslıqdan gəlib. Vaqifin bir insan kimi ritmi bu yazılardadır, -nəsrdə soyuqqanlı, təmkinli, -poeziyada coşqulu, içində etalon gəzdirən şairləri axtarır, ... istəyir ki, tapacağı nümunə fikrini doğru-düzgün ifadə etsin.

"Bu, Vaqif Yusiflidir" müsahibəsini tənqidçi Əsəd Cahangir 60 yaşı münasibətilə götürüb. Ə.Cahangir yazıb ki, İsmayıl Şıxlının vaxtından, "Azərbaycan" jurnalından başlamış islahatda Vaqif Yusiflinin də xidmətləri olub. Məşhur obuvatellər yığışdırılıb jurnalın səhifələrindən. Vaqif Yusiflinin ədəbi gəncliyə təsiri danılmazdır.Vaqif Yusiflinin fərdi təhlil üsulu, bədii ədəbiyyata yanaşmalarının öz prinsipləri olub. Onun tənqidçi mövqeyi, tənqidçi şəxsiyyəti hər hansı məqaləsindən bəllidir. "Vaqif bədii



materiala heç vaxt sosial "sifariş", ideoloji təzyiq, "kütləvi zövq" prinsipi ilə yanaşmayıb, bədii əsərin ədəbi qiymətini onun məzmunundan "hasil etmək" yolu ilə gedib, öz tənqidçi müşahidəsini çılpaq fakturaya yox, həmin fakturadakı sənət gerçəkliyi üzərində qərarlaşdırıb" - bu, tənqidçi Nadir Cabbarlının fikridir.

Nadir Cabbarlı ədəbi tənqidçinin yerini, rolunu da göstərib: 60-cı illər nəslinə məxsus mənəvi-bədii kapitalın, orijinal, bənzərsiz, ədəbi mərhələ səviyyəsində estetik təsbitində, onun tarixi-sosial, ideya-bədii, idraki-psixoloji, üslubistruktural fenomenlərinin aşkarlanmasında, elmi-nəzəri baxımdan modelləşdirilməsində və sistemləşdirilməsində. Vaqif Yusifli tənqidinin özünəməxsus yeri və rolu var, -deyə vurğulayıb Nadir Cabbarlı.

Poeziya və nəsr tənqidçisi: Vaqif Yusifli professional ədəbi tənqidə 1975-ci ildə gəlib. Tanınmış tənqidçi-ədəbiyyatşünasdır. Ustadı akademik Kamal Talıbzadə kimi tənqidi yaradıcılıq işi hesab edib. "Azərbaycan" jurnalında, "Tənqid və ədəbiyyatşünaslıq" şöbəsində işə başlayıb. Şöbəsinin müdiri olub. Jurnal onun tənqidçi kimi yetişməsində mühüm rol oynayıb.

Vaqif Yusifli tənqiddə obyektiv, ədalətli, cəsarətli və təvazökar olub. O, əsasən, ədəbiyyat və publisistikada janrların inkişafını, ədəbi dövrlər arasında əlaqəni izləyib. Vaqif Yusifli Məmməd Arif, Məmməd Cəfər yolunu davam etdirir.

Elçin onu tənqidimizin zəhmətkeşi kimi qiymətləndirib. "Müasir Azərbaycan nəsrində konflikt və xarakter" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasının opponenti, monoqrafiyasının elmi redaktoru olub. Ön sözünü "Nəsrimizdə konflikt və xarakter probleminin tədqiqi" adlandırıb. Həmin ön sözdə için müəllim aqifin bir tənqidçi-ədəbiyyatşünas kimi özünəməxsusluğundan söz açıb.

Vaqif Yusifli çoxcəhətli yaradıcılığa malikdir: nəsrin nəzəri problemləri, romanın tarixi, müasir ədəbi proses, teatr, muğam, publisistika və s.

Akademik Nizami Cəfərov "Vaqif... və Yusifli" adlı məqaləsində "Vaqif" və "Yusifli" tantemini müəyyən mənada yozub. O, Vaqifi bir cür mənalandırıb, Yusifliyini də başqa cür, - şərtiliklərlə. Vaqiflik klassikadan, dərin yollarla gəlib, Yusiflik - sanki müasirlik tarixilə, müasir qavrayışladır. Fəqət vəhdətdədir.

Vaqif Yusifli ədəbi tənqiddə ruh, məzmun, üslub və struktur etibarilə ehkamçı deyil, sxolastik tənqiddən də fərqlidir (N.Cəfərov). Vaqif emosionallığı sevir, eyni zamanda analitik mühakiməsi, analizlərinin iddialı səmimiyyəti var. O, ədəbiyyata iddialarla gəlib. Ədəbiyyata vicdanla xidmət edir, - N.Cəfərov belə yazıb. Burada bir mürəkkəb cümləişlətmək istəyirəm. Mətnə arğac kimi. AkademikNizami Cəfərov yazıb ki: taleyin bütün obyektiv və subyektiv manеələrinə baxmayaraq, Vaqif Yusifli həm adının, həm də soyadının ideya-estetik mistikasını doğrulda bilib.Vaqifin ədəbiyyata təsiri olub, onun da Vaqifliyə təsiri. Üç cür təsir olub: ədəbiyyat onun üçün eşq məsələsidir. Vaqif Yusifli ondan zövq alıb, məşəqqət görüb. Vaqifin bu eşqi həddə dolmayıb...

Nizami Cəfərov yazıb ki, Vaqif Yusifli mütəfəkkir tənqidçi-ədəbiyyatşünasdır, -deyə akademik Qəzənfər Paşayev isə onu "canlı ensiklopediya" adlandırıb.

Yalnız müasir ədəbiyyatı yox, klassik ədəbiyyat da tədqiq edib. Şeiri şair qədər duyub, nəsri nasir qədər hiss edib,- akademik Kamal Talıbzadə bunları yazıb. Nəzəriyyəni, dünya ədəbiyyatını yaxşı bilib. Klassik poeziyaya meyilli olub, Füzulini daha artıq öyrənib.

Ədəbi prosesə obyektiv münasibəti səciyyəvi olub, təhlillərində tərəfgirliyə meyil etməyib. N.Cəfərova görə, "ədəbi mənzərə", "ədəbi portret" janrlarında daha mahir olub. N.Cəfərov həssas müşahidə edib. Bu cümlələri- fikirləri yazıb. Ədəbi portretlərinin ümumi başlığı olub. Bu filankəsdir... Bu da filankəs. Arxa plan isə ədəbi şəxsiyyətin konkretliyi, fərdiliyi olub. Alim Vaqif Yusiflinin başlıq "improvizator□luğunu" xüsusi qeydə alıb. Əli Kərim: "Axtarış lazımdır, axtarış", İsa İsmayılzadə: "Bu dünyaya birdə qayıtmağım var". "Ələkbər Salahzadə: Ağ bir zanbaq kimi açıldı səhər". "Uzaqdakı işıq (Vaqif Bəhmənli), "Yol...ağac...yaşıl göz yaşları və sel ağzında söz göyərdən şair (Ramiz Qusarçaylı), "Ayrılıq (Akif Səməd), "Akşin" "Narıngül", Ayselin şeirləri" və "Bu yazını Fərhad Meteyə həsr edirəm" və s.

N.Cəfərov tənqidçinin ədəbi proses barəsində icmallarını, onların keyfiyyətini, dəyərini bəlgələyib: "Poeziya...Poeziya" məqaləsindəki (2017) statistika: kəmiyyət və keyfiyyət göstəriciləri... Və nəticələr, müddəalar...

Vaqif Yusiflinin teatr tənqidindən də danışmaq olar. Müəllifin teatr sənətinin Nəsibə Zeynalova, Səməndər Rzayev, Məhluqə Sadıqova, Hamlet Xanızadə, Hamlet Qurbanov, Vəfa Fətullayeva, Laləzar Mustafayeva kimi nümayəndələri haqqında məqalələri də var. Tənqidçi onların səhnəyə gətirdikləri yeniliklərin fərqində olmağa çalışıb. Vaqif Yusifli muğam ustalarından, Alim Qasımovun ustadlığından da yazıb.

Kitabları:«Yolun düşsə Şirvana» (Bakı, «Şur», 1993) kitabında Şirvan bölgəstindəki aşıq və xanəndələrin fəaliyyətindən söz açılıb.

«Məmməd Araz dünyası» (Bakı, «Şur» nəşriyyatı,1994) adlı kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayevdir. Əsər Xalq şairi Məmməd Arazın həyatı və yaradıcılığı haqqında ilk monoqrafiyadır. Y.Qarayev kitaba «Yaddaş poeziyası» adlı ön söz yazıb. Kitabda «Azərbaycan şeirinin Arazı», «Nursdan boylanan dünya», «Məni şeirimdə gəz», «Ömür karvanı yol alır», «Şairin fəlsəfi lirikası», "Şair, qayalara, dağlara söykən», «Şairin publisistikası», «Poemalar», «Şairin tərcümələri», «Ədəbi tənqid və Məmməd Araz», «Şairlə müsahibə» adlı fəsillər verilib.

Alimin "Məmməd Araz dünyası" kitabını Y.Qarayev yaddaş poeziyası kimi səciyyələndirib. Bu kitab M.Araz mükafatı alıb. Monoqrafiya ruhu, məzmunu, üslubu və strukturu ilə ehkamdan, sxolastik tənqiddən uzaq olub,- Y.Qarayev bu fikrdədir. Kitab tənqidçinin yenilikçilik və müasirlik axtarışlarını ifadə edib. Vaqifin kitabı "sosial ənənə, əxlaq və yaddaşın təbliğinə xidmət edən timsal və örnəkdir", - Yaşar Qarayev belə dəyərləndirib.

Vaqif Yusifli elinə-obasına bağlı ziyalıdır. «Ərkivan və ərkivanlılar» kitabı (Bakı,«Sabah», 1996). Alimin doğma kəndi, onun tarixi, etnoqrafiyası, yetişdirdiyi sənətkarlar, idmançılar, din xadimləri və şəhidləri haqqındadır. Nəşrin redaktoru Teymur Kərimlidir. Vaqif Yusifli ayrı-ayrı sənətkarlara həsr olunmuş 15-ə qədər kitabın da müəllifidir. Bunlar geniş həcmli portet-oçerklərdir.

«Ömür yolu - nur yolu» kitabı professor Fərahim Sadıqov haqqındadır.- Nəşrin redaktoru Mövsüm Əşrəfoğludur («Sədа», 1997).

"Tənqid yarpaqları" məqalələr toplusudur (Bakı,«Gəçnclik», 1998). Nəşrin redaktoru Mustafa Çəmənli, ön sözün («Tənqidimizin zəhmətkeşi») müəllifi Elçin Əfəndiyevdir. Kitab iki bölmədən ibarətdir. «Ədəbi portretlər» və «Teatr». Birinci bölmədə Vaqif Yusifli çox sevdiyi sənətkarların (Səməd Mənsur, Mikayıl Müşfiq, Süleyman Rəhimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Əkrəm Cəfər, Nəbi Xəzri, Sabir Əhmədli, Əli Kərim, Sərdar əsəd, Xəlil Rza, Anar, Sabir Rüstəmxanlı, Səyavuş Sərxanlı, Vaqif Hüseynov, Ağamalı Sadiq, Şahmar Hüseynov, Vaqif Bayatlı və Nisəbəyim) yaradıcılığını təhlil edib. «Teatr» bölməsində isə Nəsibə Zeynalova, Məhluqə Sadıqova, Vəfa Fətullayeva, Hamlet Xanızadə, Hamlet Qurbanov və Ləzavr Mustafayevanın sənətindən söz açılıb. "Tənqid yarpaqları" haqqına B.Vahabzadə ədəbi qeyidlərini yazıb. Tehran Əlişanoğlu Vaqif Yusiflini milli-ədəbi mühit və tənqid prosesində "ən sadiq, ardıcıl, yorulmaz, kütləvi və məşhur bir ad" kimi dəyərləndirib. Onun "Tənqid yarpaqları" kitabını 90-cı illərin ən gerçək ədəbi-tənqid faktı" hesab edib.